# USTAD PEDAQOQ, DƏYƏRLİ ALİM



**Hər kəs öz ömrünü yaşayır. Bu ömrü mənalı, dəyərli etmək də hər kəsin öz əlindədir. Elə yaşamalısan ki, kimlərsə bu ömür yolundan nümunə götürə bilsin, kimlər üçünsə həyat idealına çevriləsən. Axı öz peşəsini sevən, öz işini mükəmməl bilən və onu şərəflə, ləyaqətlə, vicdanla, halallıqla yerinə yetirən insandan bütün bəşəriyyət faydalanır, Vətəni, xalqı xeyir görür. İllər, əsrlər sonra hörmətlə xatırlananlar da məhz belə insanlardır. Seçdiyi sənətini qəlbən sevən, şəxsi keyfiyyətləri ilə çoxlarına nümunə olan insanlardan biri idi Yəhya müəllim!**

Yəhya Əliyev 1929-cu il fevralın 6-da Qərbi Azərbaycanın Nüvədi kəndində anadan olmuş, uzun illər Bakı Dövlət Universitetində çalışmış, təqaüddə olanda belə universitetlə əlaqəsini kəsməmişdi. Ömrünün 60 ili Universitetlə bağlı olmuşdu: 2019-cu ildə 100 yaşı tamam olacaq Bakı Dövlət Universiteti əslində onun həyatının mənası demək idi. Yəhya müəllimin Universitetdə fəaliyyəti, öz vəzifə borcunu peşəkarlıqla yerinə yetirməsi, fəlsəfi biliklərin əsaslarına dərindən bələd olması və bu bilikləri inamla tələbələrə çatdırması, gənclərin problemlərinə nüfuz etməyi bacarması və s. keyfiyyətləri onu müəllimlərin və tələbələrin sevimlisinə çevirmişdi.

Yəhya müəllim təkcə məharətli pedaqoq deyildi, həm də bacarıqlı tədqiqatçı idi. Onun Cəlil Məmmədquluzadənin ideya irsində din məsələlərinə həsr olunmuş dissertasiya işi elmi ictimaiyyətin diqqətini cəlb etmiş və yüksək qiymətləndirilmişdi. O, fəlsəfə doktoru elmi dərəcəsinə layiq görülmüşdü. Böyük demokrat Cəlil Məmmədquluzadəyə dair tədqiqatları sonralar da davam etdirmiş və ciddi uğurlar qazanmışdı. Cəlil Məmmədquluzadənin fəlsəfi fikirləri onun çoxsaylı məqalələrində və kitablarında öz əksini tapmışdır. Yəhya müəllim Mirzə Cəlilin vurğunu və yorulmaz təbliğatçısı idi. İncə yumoruna, iti ağlına, təmkinliliyinə, böyük mətləbləri yığcam ifadə edə bilmək bacarığına görə bəzən onun barəsində deyirdilər:"Elə Mirzə Cəlilə oxşayır". Ümumiyyətlə, onun fəaliyyətində pedaqoqluq məharəti, dərin tədqiqatçılıq və yüksək insani keyfiyyətlər bir vəhdət təşkil edirdi. O, sadə geyimi, təvazökar, nəzakətli davranışı və səmimiyyəti ilə hamının qəlbində iz buraxmağı bacarırdı. Burada görkəmli sənətkar Servantesin bir deyimini xatırlamaq yerinə düşər:"Bütün dünyada çox asan başa gələn və hamı tərəfindən yüksək qiymətləndirilən bir şey var: onun adı nəzakətdir". Bəli, Yəhya müəllim nəzakətlilik, ziyalılıq nümunəsi idi.

Yəhya müəllimin ən yaxşı keyfiyyətləri onun uzun müddət (1976-cı ildən 1987-ci ilədək) BDU-da hazırlıq şöbəsinə rəhbərliyi zamanı üzə çıxdı. O, həmişə iş yerində olur, hazırlıq şöbəsinə qəbul olunanlarla fəal iş aparır, buraya ən layiqlilərin seçilməsi üçün bütün səlahiyyətlərindən istifadə edirdi. Çalışırdı ki, hazırlıq şöbəsində universitetin ən hazırlıqlı, işgüzar, saf əməkdaşları, təcrübəli müəllimləri dərs desin. Belə demək olar ki, hazırlıq şöbəsinin fəaliyyəti universitetin qaynar həyatına yeni rəng qatmış, yeni bir ahəng gətirmişdi. Qocaman əməkdaşlarla, görkəmli sənətkarlarla, tanınmış istehsalat qabaqcılları ilə görüşlər keçirilir, maraqlı, yaddaqalan diskussiyalar təşkil olunurdu. Azad fikir mübadiləsi, emosional çıxışlar, əsaslı arqument axtarışı həmin görüşlərin, diskussiyaların, əhəmiyyətini bir az da artırırdı.

Mən Yəhya müəllimin Bakı Dövlət Universitetinin hazırlıq şöbəsində fəaliyyəti üzərində bir qədər ətraflı dayanmaq istərdim. Hazırlıq şöbələri əslində təhsil prosesində bir yenilik deyildi, inqilabdan sonra maarifçiliyin inkişaf etdirilməsində, insanların savadlanmasında fəhlə fakültələri, fəhlə məktəbləri böyük rol oynamışdı. Ali təhsil məktəblərində bu tip şöbələrin fəaliyyəti vaxtilə ali təhsil almaqdan bir qədər uzaq düşən, lakin istehsalatın ayrı-ayrı sahələrində, kolxoz və sovxozlarda işləyən qabaqcıl fəhlə və kəndlilərin oxumasına şərait yaradırdı. Üstəlik hərbi qulluqdan tərxis olunanlar da oxumaq fürsəti qazanırdılar. Bu kateqoriyadan olan gənclərin hazırlıq şöbəsinə qəbulu zamanı Yəhya müəllim layiqlilərin kənarda qalmaması üçün var-qüvvəsini sərf edirdi.

Səkkiz ay çəkən hazırlıq prosesində Yəhya müəllim buradakı dinləyicilərə əsl atalıq qayğısı göstərirdi, sayca o qədər də çox olmayan uşaqların adlarını əzbər bilir, fərdi söhbətlər aparır, problemlərini, çətinliklərini öyrənir, imkan daxilində onları həll etməyə çalışırdı. Təhsildən yayınan, dərslərinə hazırlıqlı gəlməyənlərə xüsusi diqqət və qayğı ilə yanaşır, ağıllı məsləhətlər verir, düz yola qaytarırdı. Özünəxas sakit tərzdə deyirdi: “Bu, bəlkə də ali təhsil almaq üçün sizin son şansınızdır. Vaxtınızı boş yerə sərf etməyin. Dövlətin yaratdığı bu şəraitdən faydalanın, elə edin ki, sonra peşiman olmayasınız”.

Bütün bunlar isə əbəs deyildi, kənd, rayon mühitindən ayrılıb böyük şəhərə düşən bu gənclərin gələcək taleyi Yəhya müəllimi çox düşündürdü. Bu da onun insani keyfiyyətlərindən irəli gəlirdi.

Yəhya müəllim eyni zamanda artan yaşını, pedaqoq və tədqiqatçı kimi imkanlarını həmişə ciddi şəkildə nəzərə alırdı. O, fəlsəfə kafedrasının nəzdindəki “Sosioloji tədqiqatlar” elmi-tədqiqat laboratoriyasına işə keçəndə də, təqaüdə çıxanda da əsl vətəndaşlıq mövqeyindən çıxış edir, universitetin nüfuzunun daha da yüksəlməsi istiqamətində addımlar atırdı. Bəli, bizim Yəhya müəllim Universitetdə işlədiyi müddətdə öz fəaliyyəti ilə ölümündən sonra da yaşamaq haqqı qazanmış, böyük hərflə yazılan insan olmaq üçün mümkün olan hər şeyi etmişdi.

Belə bir deyim var: “Tarix... gəminin arxa tərəfindəki işıqlar kimidir, ancaq iz qoyurlar. Allah mənə güc versin ki, bacardığımı dəyişdirə bilim, cəsarət versin ki, dəyişdirə bilmədiyimi qəbul edim və müdriklik versin ki, birini digərindən fərqləndirə bilim”.

Yəhya müəllim həyatda iz qoyub gedən simalardandır. O, eləyə bildiklərini də, eləyə bilmədiklərini də etiraf etməyi, onları fərqləndirməyi bacarırdı. Yəhya müəllimin həyatı zəhmətlə yoğrulmuş, müdriklik düşüncəsi ilə cilalanmış bir ömür yoludur. Ona görə də onu hamı hörmətlə xatırlayır. Hamı tərəfindən sevilmək, yüksək qiymətləndirilmək isə böyük səadətdir...

**Fazil VAHİDOV,**
**BDU-nun sosiologiya kafedrasının dosenti.**